Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

NİZAMİ GƏNCƏVİ



# Türküstan gözəlinin hekayəti



Nizami Gəncəvi

# Türküstan gözəlinin hekayəti



GƏNCLİK • BAKI • 1984



Şeyda adlı incə zövqlü bir memar Bəhramşahın arzusuyla iki il gecə-gündüz işləyərək yeddi rəngə çalan yeddi günbəzli nurlu bir saray tikdi.

Həftənin hər gününü bir ölkə gözəlinin şirin hekayətini dinləməklə keçirən Bəhram şah yekşənbə günü sarı günbəzə Yəğmənaz adlı Rum[1] gözəlinin görüşünə gəldi. Rum gözəli şahı salamlayıb öz hekayətinə başladı:

– Deyirlər İraqda cah-calallı, qüdrətli bir şah varmış. Günlərin bir günü o münəccimlərdən öyrənir ki, haçansa qadınlardan onun başına bəla gələcəkdir. Bəxtinin uğursuzluğundan şikayətlənən şah elə o gündən qadınlardan uzaq gəzib təktənha yaşamağa başladı.

---

[1] Şərq ölkələrinə işarədir.





Sonralar tənhalıqdan, bu üzücü günlərdən bezikən şah kəniz alıb-satmaqla məşğul oldu.

Günlərin bir günü tacir şahın hüzuruna bir dəstə kəniz gətirdi. Xoş təbəssümlü, mələk simalı, ay camallı bir kənizdən şahın çox xoşu gəldi. Öyrəndi ki, o kəniz ağlı-kamalıyla hamını heyran qoyub. Lakin tacir bunu da əlavə etdi ki, ay camallı, xoş təbəssümlü bu pərinin kişilərdən zəhləsi gedir. Kim bu kənizi alırsa, xasiyyətindən narazı olub geri qaytarır.

– Şah, sizin qadınlardan xoşunuz gəlmir, onunsa kişilərdən. Belə olduqda ulduzunuz heç cürə barışmaz. Qorxuram ki, onu alıb, sonra yenə peşman olub qaytarasınız – deyə tacir şahı fikrindən daşındırmağa çalışdı.

Lakin şah inadkarlığından dönmədi. Kənizin məhəbbətini qazanmaq









üçün Süleyman padşahla sevgilisi Bilqeyisin dastanından söz açdı:

– Süleymanla Bilqeyisin şikəst bir oğlu varmış. Gecə-gündüz dövləti ədalətlə idarə edən padşah doğruçuluğu, mərdliyi ilə hamının hörmətini qazanıbmış. Yetim-yesirə əl tuturmuş. Padşahın xeyirxahlığı əvəzsiz qalmır. Gün keçir, ay dolanır, kasıb-kusubun, kimsəsizlərin, köməksizlərin alqışı oğlunu sağaldır, gözünə işıq, dizinə taqət gətirir.

Şahın söz-söhbəti kənizin çox xoşuna gəldi və söz verdi ki, həqiqəti olduğu kimi danışsın. Demə onun ailəsində uğursuz bir adət varmış. Ərə gedən bacılar bir qədərdən sonra dünyadan köçürmüş.

Şah кənizin sözlərinə qəlbən inansa da saf məhəbbətlə sevdiyi bu gözələ qovuşmaq, xoşbəxt olmaq istəyirdi. Aylar ötdü, şahın saf, tə-





miz, ülvi məhəbbəti kənizin ömrünə nəğmə dolu günlər gətirdi. Onlar qovuşub xoşbəxt ömür sürdülər.

Bəhram şah sarı rəng haqqında şirin xəyallara daldı.

Bir ömrün nəğməsini ötüb torpağın çiyninə düşən yarpaqların, yeri-yurdu nurlandıran günəşin ziyası sarı rəngdədir. Çörəyin üzünə çəkilən sarı zəfəranın ətri xoş duyğular oyadır. Şamın şöləsi zülmətin bağrından nur zolağı salır, məclislərə, şənliklərə sevinc gətirir.






**Rəssamı Rafael Əsədov**

**Низами Гянджеви**
**Сказка Туркестанской Красавицы**
(По мотивам “Хамсе”)
На азерб. языке

Fars dilindən tərcümə edəni və uşaqlar üçün
işləyəni ABBASƏLİ SAROVLU

Redaktoru: **Zülfüqar Şahsevənli.**
Bədii redaktoru: **N. Rəhimov.**
Texniki redaktoru: **N. Süleymanov.**
Korrektoru: **R. Qasımova.**

İB № 1453. Yığılmağa verilmiş 01.06.84
Çapa imzalanmış 13.08.84. Kağız formatı 60 x$90^{1}/_{8}$.
Ofset kağızı. Ədəbi qarnitur. Ofset üsulu ilə.
Şərti ç/v 2.0. Rəngli şərti ç/v 12. Uçot nəşr v 2.0
Tirajı 50000 Sifariş № 5049. Qiyməti 15 qəp.

Azərbaycan SSR Dövlət Nəşriyyat Poliqrafiya və
Kitab Ticarəti İşləri Komitəsi
«Gənclik» nəşriyyatı. Bakı, Hüsü Hacıyev küçəsi. 4

N $\frac{4803010200\ 203 - 83}{M353(12) - 83}$



© Gənclik 1984





FİRİDUN BƏY KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI 50

Çapa imzalanmışdır: 25.04.2016.
Ofset çap kağızı.
Formatı: 60x84 1/8.
Həcmi: 2 ç.v.
Sifariş 7.
Tiraj: 500.

Kitab “Nağıl Evi-N” mətbəəsində
ofset üsulu ilə çap olunmuşdur.

*Təkrar çap zamanı ilk nəşrin
kitab göstəriciləri olduğu kimi saxlanılmışdır*

Bərpanəşr

**Bakı-2016**